AZƏRBAYCAN RESPUBLİKASI
VERGİLƏR NAZİRLİYİ

BEYNƏLXALQ MÜNASİBƏTLƏR İDARƏSİ

*Beynəlxalq təcrübələr və innovasiyalar şöbəsi*

# Seçilmiş ölkələrdə aşağıdakı mövzular üzrə təcrübələr:

## 1 – Nümayəndəlik və Filial anlayışları

## 2 – Sahibkar olmayan fiziki şəxsin iflası

**2014**

**Macarıstan Respublikasında** xarici sahibkar **Filial** açmaqla fəaliyyət göstərə bilər. Həmin filial Macarıstan Qeydiyyat Məhkəməsində hüquqi şəxs kimi qeydiyyata düşmür və təmsil etdiyi təşkilatdan ayrı təşkilat vahididir. Xarici biznes təşkilatı Macarıstanda biznes fəaliyyətini filial vasitəsilə həyata keçirir və üçüncü şəxslər o cümlədən dövlət qurumları qarşısında filial vasitəsilə təmsil olunur. Filial tam fəaliyyət qabiliyyətli olmaqla, əldə olunan bütün hüquq və öhdəliklər xarici şirkətə məxsusdur. Hər filial şirkət reyestrində qeydiyyatda olur. Filal ora təyin olunmuş fiziki şəxslər tərəfindən və ya daimi işçilik müqaviləsi və yerli yaşayış yeri ilə təmsil oluna bilər. Filial təmsilçiləri və onların yaxın qohumları təsis sənədləri ilə müəyyən olunan və ya xarici biznes təşkilatının təsdiq etdiyi fəaliyyət növü ilə məşğul olur. Əgər fialı təmsilçisi eyni biznes fəaliyyəti ilə məşğul olan digər filialın səhmlərini əldə etmək istəyirsə buna icazəni xarici biznes təşkilatı verməlidir.

Macarıstan Respublikasında qeydiyyatdan keçmiş yerli şirkətlərə şamil olunan normalar filiallara da aiddir. Məsələn mühasibat yazımları Macarıstan Mühasibat Qanunları ilə tənzimlənir. Filialın işçiləri xarici biznes təşkilatı ilə əmak müqaviləsində olduqlarından xarici təşkilatın öz əmək siyasəti tətbiq olunur. Xarici biznes təşkilatı filialın fəaliyyətini yerinə yetirmək üçün mütəmadi vəsaitlə təmin edir və borc öhdəliklərini yerinə yetirir.

Filial fəaliyyəti zamanı yaranan borclara qarşı xarici təşkilat və filial müştərək məsuliyyət daşıyır. Əgər xarici şirkətin borclarının alınmasına dair məhkəmə qərarı mövcuddursa Macarıstan Respublikasında yerləşən filial həmin qərara tabe tutulacaqdır.

**Nümayəndəlik** hüquqi şəxs yaratmadan şirkət qeydiyyat orqanında qeydiyyatdan keçəndən sonra təsis olunmuş sayılır. Nümayəndəliyin fəaliyyət dairəsi təmsil etdiyi xarici təşkilat adından vasitəçilik etmə, müqavilələrin hazırlanması, məlumat daşıyıcılığı, reklam və təbliğat işlərinin həyata keçirilməsi ilə məhdudlaşır. Nümayəndəlik öz adından mənfəət gətirən heç bir əməliyyat həyata keçirə bilməz. Amma onlar xarici təşkilatı qazandıracaq müqavilələrin zəminini yarada bilərlər. Nümayəndəlikdə əmək münasibətləri filialda olduğu kimi tənzimlənir.

Macarıstan Respublikasında hüquqi və fiziki şəxsin iflası "**İflas Məcəlləsi**" ilə tənzimlənir. Məcəlləyə görə iflas prosesi kreditor (borc verən) o cümlədən debitor (borc alan) tərəfindən başladıla bilər. Əlbəttə ki, təşəbbüsün kreditor tərəfindən gəldiyi təqdirdə debitorun və onu təmsil edən məhkəmə orqanının razılığı əsasında mümkündür. Əgər borc alan müflis olması haqqında məhkəməyə müraciət edirsə, o zaman məhkəmə orqanı bir iş günü ərzində həmin müraciəti o cümlədən müvəqqəti moratoriumu Şirkətlər Qəzetində dərc edir. Müraciət edildikdən sonra Məhkəmə orqanı müraciətin İflas Məcəlləsinə uyğunluğunu araşdırır və şəxsi müflis elan edir. Borclu tərəfə 90 gün moratorium verilir. Borc verən tərəf 30 gün ərzində iddialarını borcluya və onların himayədarlarına (trustee) bildirə bilər. Borclu isə elan dərc olunandan 5 gün ərzində kreditorlarının iddialarını məhkəməyə təqdim etmək üçün çağırır. Məhkəmədə borc məbləğlərinin qeydiyyatı üzrə ödənilməsi lazım olan məbləğ iddia olunan məbləğin 1 % həcmindədir (maksimum 370 EUR)

İflas prosesində moratorium uzadıla bilər amma toplam müddət iflas elan olunma tarixindən 365 günü keçə bilməz. Əgər debitor və kreditor razılığa gəlirlərsə, bu protokollaşdırılaraq məhkəməyə təqdim olunur. Məhkəmə İflas Məcəlləsi ilə uyğunluğu yoxlayır və prosesə son qoyur.

**Latviya Respublikasının** Ticarət Qanununa əsasən yerli və xarici şirkət filial və ya nümayəndəlik təsis edə bilər. **Filial** təşkilati hüquqi baxımdan təmsil etdiyi ana qurumdan müstəqil fəaliyyət göstərməsinə baxmayaraq hüquqi şəxs deyildir. Filial hesabatlılıq baxımından qeydiyyatdan keçmiş digər şirkətlər ilə eyni qaydalara tabe tutulur. Ana şirkət filialın bütün fəaliyyətinə və öhdəliyindən cavabdehdir. Filialların dövlət qeydiyyatı Latviya Respublikası Kommersiya Riyestrinə sənədlərin təqdim olunmasından 4 iş günü ərzində həyata keçirilir.

Nümayəndəliklər filiallara bənzərdir. **Nümayəndəliklər** də müstəqil hüquqi şəxslər deyildir. Latviya Respublikasında nümayəndəliklərin biznes fəaliyyəti həyata

keçirməyə ixtiyarı yoxdur. Nümayəndəliyin əsas məqsədi bazar araşdırması, reklam və marketinq fəaliyyətinin həyata keçirilməsidir.

Latviya Respublikasında **"İflas Qanunu"** hüquqi və fiziki şəxslərdə, ortaqlıqlarda, xarici şəxslərdə iflas prosedurlarını tənzimləyir. Dövlət qurumları qismində iflas prosesinn icrasında birbaşa iştirak edəm orqanlar məhkəmə və İflas Administrasiyasıdır. Latviyada hüquqi şəxslərdə ödəmə qabiliyyətinin olmaması məsələsi aşağıdakı 3 yoldan biri ilə həllini tapır.

1 – Korporativ xilasetmə: Borcverən borcalanla məhkəmə iştirakı ilə vəziyytdən çıxış planı cizir.

2 – Ödəmə: Borcverən borcalanla kompramis yolunu seçir.

3 – İflas: Borcverənlər iclasda səsvermə keçirməklə qərar qəbul edir. Həmin qərar məhkəmə tərəfindən təsdiqlənir. Məhkəmə aşağıda qeyd olunanlardan ən azı birini aşkar etdikdən sonra şəxs iflas elan olunur:

1) Borclu borc öhdəliyini yerinə yetirə bilmir (sübut edici dəlillər mövcuddur)
2) Borclu borc ödənişini müəyyən səbəblərə görə dayandırıb
3) Borclunun borc məbləği onun aktivlərindən çoxdur

Fiziki şəxslərin iflası 5000 LVL = 7600 AZN

1500 LVL = 2280 AZN çox alacağı olan kredotor məhkəmə vasitəsilə iflas elan etmə təşəbbüsünü seçə bilər.

**Litva Respublikası** qanunvericiliyinə əsasən investorlar öz fəaliyyətlərini aşağıdakı formalar şəklində həyata keçirə bilərlər:

- Nümayəndəlik
- Filial
- Daimi nümayəndəlik (vergitutma məqsədləri üçün)
- Müəssisə (şirkət və ya digər)

İlk öncə qeyd etmək lazımdır ki, Litva respublikasında filial və nümayəndəliklər müstəqil hüquqi şəxs statusuna malik deyildirlər. Xarici

müəssisənin nümayəndəliyi yalnız təqdimat və təmsilçilik məqsədləri üçün təsis edilə və kommersiya fəaliyyəti ilə məşğul olmaya bilər. **Nümayəndəlik** təsis sənədləri ilə müəyyən edilən müxtəlif fəaliyyətlərlə məşğul ola bilər. Məsələn, nümayəndəlik xarici ana şirkətin maraqlarını təmsil və müdafiə edə (nümayəndəliyin təsisçisi vasitəsilə), ana şirkətin adından əməliyyatlar həyata keçirə və digər hüquqlara malikdir. Litvada xarici ana şirkətin daimi kommersiya fəaliyyəti hesab edilən fəaliyyəti nümayəndəlik vasitəsilə həyata keçirilirsə, o zaman mənfəət vergisinə cəlb edilə bilər. Xarici ana şirkət nümayəndəliyin öhdəlikləri üçün məsuliyyət daşıyır. Nümayəndəlik yalnız hüquqi şəxsin və ya təşkilatların nümayəndəliklərinə münasibətdə idxal-ixrac əməliyyatlarını apara, sazişlər imzalaya və digər fəaliyyətləri həyata keçirə bilər. Litva Respublikasının Mülki Məcəlləsinə əsasən nümayəndəliyin adından çıxış etmək hüququna malik olan şəxslərdən ən azı biri (praktikada nümayəndəliyin rəhbəri olur) Litvada yaşamalıdır.

Xarici müəssisənin **filialı** onun Litvada yerləşən struktur bölməsidir. Filial təsis sənədlərində ona verilən səlahiyyətlər çərçivəsində kommersiya fəaliyyəti ilə məşğul ola, alqı-satqı əməliyyatları apara bilər. Ana şirkət filialın öhdəlikləri üçün məsuliyyət daşıyır. Filial bütün aktivləri ilə ana şirkətin öhdəlikləri üçün məsuliyyət daşıyır. Filialın fəaliyyəti rəhbər tərəfindən təşkil edilir və həyata keçirilir. Rəhbərin yalnız filialın qeydiyyatından sonra üçüncü tərəflərlə münasibətdə filialı təmsil etmək hüququ vardır. Filialın adından çıxış etmək hüququna malik olan şəxslərdən ən azı biri (praktikada filialın rəhbəri olur) Litvada yaşamalıdır.

Litva Respublikasında Fiziki şəxsin **İflası qanunu** 1 may 2013-cü il tarixdə qüvvəyə minmişdir. Fiziki şəxsin İflası qanunu əsas xüsusi maraqları Litva Respublikasında olan fiziki şəxslərə şəxsi iflas icraatına başlamağa imkan verir. Ödənilməli olan şəxsi borcların məbləği Litva Respublikası hökuməti tərəfindən qəbul edilmiş 25 minimum aylıq əmək haqqından (hal-hazırda 25,000 LTL = 7,241 EUR) artıq olduqda şəxs müflis hesab edilir. Şəxsi müflisləşmə müvafiq şəxs tərəfindən başladıla bilər və məhkəmə qaydasında aparılır. Şəxsi iflas qanunu fiziki şəxsə əvvəlki müflisləşmə icraatı tam şəkildə başa çatdıqdan 10 il sonra yenidən iflas icraatına başlamağa imkan verir. Fiziki şəxsin ödəmə qabiliyyətinin bərpası Ödəmə qabiliyyətinin bərpası

planına, kreditorların tələblərinin yerinə yetirilməsi cədvəlinə və digər xərclərin ödənilməsinə uyğun aparılır. Plan həyata keçirilərkən fiziki şəxsə borc yükünün geri ödənilmə tranşlarından asılı olaraq aylıq təsbit edilmiş məbləğə təminat verilir.

Planın icra müddəti 5 ildən artıq davam etməyəcək. Fiziki şəxslərin müflisləşmə prosesi məhkəmədə icra olunur. Məhkəmə iflas administratoru təyin etməlidir. Fiziki şəxsin iflas icraatı sadə prosedurla başladıla bilər. Fiziki şəxsin iflas qanununun müddəalarına əsasən ərizə vasitəsilə məhkəmədə iflas məsələsinə başlamaq üçün Plan yaradıla bilər.

Fiziki şəxsin iflas qanununa əsasən Planı təsdiq edən kreditorların ilk görüşündə şəxsi müflisləşmənin qüvvəyə minməsi üçün məhkəmənin qərar dövrü də daxil olmaqla şəxsi müflisləşmə prosesi üçün administratora ödəniləcək məbləğ müəyyən edilir.

**Estoniya Respublikasında** xarici şirkətlər üçün öz adını saxlamaqla daimi olaraq mal və ya xidmətlər təklif etməyin yolu **filial** təsis etməkdir. Xarici şirkətin filialının biznes adı şirkətin biznes adından və *Eesti filiaal (*Estoniya filialı) sözlərindən ibarətdir. Filial müəyyən tələb olunan sənədləri və ərizəni göndərməklə Estoniya Kommersiya Qeydiyyatında qeydiyyatdan keçməlidir.

Avropa İttifaqına üzv olmayan ölkələrdə yerləşən xarici şirkətlər və ya sığorta şirkətləri kimi müəyyən qurumlar tələb olunan lisenziyanı əldə etməlidirlər. Avropa İttifaqına üzv ölkələrdən olan banklar və sığorta şirkətləri sadəcə olaraq Estoniya Maliyyə Nəzarəti Orqanını Estoniyada fəaliyyətə başlamaq niyyətində olduqları barədə xəbərdar etməlidirlər.

Nəzərə almaq lazımdır ki, filial hüquqi şəxs deyildir. Xarici müəssisə filialın fəaliyyəti zamanı yaranan öhdəlikləri üçün məsuliyyət daşıyır. Xarici şirkət filiala bir və ya bir neçə direktor təyin edə bilər. Direktor aktiv fəaliyyət qabiliyyətli fiziki şəxs olmalıdır. Direktorlardan ən azı biri Avropa İttifaqı ölkəsində və yaxud da İsveçrə Konfederasiyasında rezident olmalıdır.

Xarici şirkətin filialı ayrıca hüquqi şəxs olmasa da, özünün mühasibatlıq sənədlərini saxlamalıdır. Filial Estoniya qanunvericiliyinə əsasən vergiyə cəlb olunur. Filialın

gəlirləri tərkib hissəsi olduğu xarici şirkətdə vergiyə cəlb olunacaq. Estoniya Vergi və Gömrük orqanı filialın vergilərini təyin etmək üçün filialda yoxlama apara bilər.

Estoniya qanunvericiliyinə görə **nümayəndəlik** anlayışı nəzərdə tutulmamışdır. Lakin kredit təşkilatlarının ölkədə filial açmaq məqsədilə nümayəndəlik ofisini təsis etməsi mümkündür.

Estoniya Respublikasında müflisləşmə sektorunda hüquqi baza 2003-cü il **"İflas Aktı"**na əsaslanır. İflas Aktının müddəaları ödəmə qabiliyyəti olmayan debitorların ləğvi icraatını və ya yenidən təşkili prosesini təmin edir. 2008-ci ilin "**Yenidən təşkil Aktı"** maliyyə çətinliyi olan və gələcəkdə müflis olacağı güman edilən debitorlara tətbiq edilir.

Fiziki şəxslər üçün iflasın nəticələri çox ağır olur və aşağıdakı qeyd olunan hüquqların məhdudlaşdırılmasına səbəb olur:

-Əmlaka sərəncam vermək

-Sərbəst hərəkət etmək

-Sahibkar və ya idarə heyətinin üzvü kimi fəaliyyət göstərmək.

2011-ci ilin aprel ayından şirkətlər kimi fərdi sahibkarlar da məhkəmə nəzarəti altında yenidən təşkil edilə bilər. Hal-hazırda yalnız iflas və yenidən təşkilə aid qanunvericilik layihəsi mövcud deyildir. Bununla belə, qanunverici orqan icraatı daha səmərəli etmək üçün Mülki-prosessual məcəlləyə bir sıra dəyişikliklər etmişdir.